# Əbədiyaşarlıq zirvəsi

**Müstəqil və qüdrətli dövlət qurmaq xoşbəxtliyi yalnız güclü şəxsiyyət yetişdirmiş xalqlara nəsib olur. Bu, tarixin sınağından çıxmış gerçəklikdir. Xalqı vahid milli ideya ətrafında birləşdirməyi bacaran lider onu öz müqəddəs arzularına qovuşdurmağa qadirdir. Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət və alternativsiz milli lider kimi XX əsrin sonlarında Azərbaycanı başının üstünü almış bütün bəlalardan qorudu, onun suverenliyini saxlaya bildi. Həmin dövrdə Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Ölkədə xaos, özbaşınalıq, anarxiya hökm sürürdü, siyasi və iqtisadi böhran dərinləşmişdi. Dərin böhranı aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda vardı. Çünki xalq hələ 1969-cu ildə hakimiyyətə gələndən sonra Heydər Əliyevin nəyə qadir olduğunu görmüşdü.**



Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikasının Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi.

Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Sabitlik əldə olunandan sonra dövlət quruculuğu istiqamətində təxirəsalınmaz addımlar atıldı, bir çox mühüm qanunlar qəbul edildi. Ölkə iqtisadiyyatının dirçəlişi yönümündə də vacib islahatlar və proqramlar həyata keçirildi.

Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir, imzalar içində millətimizin də imzası çox aydın görünür. İndi planetimizin çox yerindən nəzərlər dünyada ən böyük enerji layihələrinin gerçəkləşdiyi Azərbaycana yönəlib. Təkcə biz yox, bütün dünya bilir ki, "Əsrin müqaviləsi"nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik neft kəmərinin reallaşması Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına qeyri-mümkün kimi görünən layihələri yalnız ulu öndərimizin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində reallaşdırmaq mümkün olub.

Dünyanın məşhur siyasətçiləri, dövlət xadimləri Heydər Əliyevi siyasət nəhəngi adlandırırdılar. O, tarixi perspektivləri qabaqcadan görmüş, ən çətin məqamlarda yeganə düzgün qərarlar qəbul etmək bacarığı ilə çoxlarını heyran qoymuşdur.

Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA-nın reallaşması da ümummilli liderimizin bəşəri xidmətlərindəndir. Heydər Əliyev deyirdi: "Heç bir ölkə, ən böyük ölkə də öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz... Tarixi böyük İpək Yolunun bərpası, milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir".

Ümummilli liderimizin gərgin əməyi sayəsində 1994-cü ilədək davam edən iqtisadi tənəzzülə son qoyuldu. Makroiqtisadi göstəricilər ilbəil yüksəldi. Dinamik inkişaf dövrü başlandı.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun istifadə olunmasında ümummilli liderimiz Heydər Əliyevin uğurlu neft strategiyası olduqca böyük əhəmiyyət kəsb edir. 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin inşa olunmasına dair bağlanmış saziş Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynadı.

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci ildə qəbul olunmuş ilk Milli Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının qorunmasını öz siyasətinin prioriteti kimi qəbul etdi.

Böyük öndərimizin titanik fəaliyyətinin digər mühüm nəticəsi Azərbaycanın beynəlxalq aləmdə özünə layiqli yer tutması, dünyanın inkişaf etmiş dövlətləri ilə səmərəli əlaqələr çərçivəsində bərabərhüquqlu əməkdaşlığa nail olmasıdır. Ardıcıl, düşünülmüş xarici siyasət kursu Azərbaycan dövlətinə demokratik dəyərləri hər şeydən uca tutan, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quran, qonşuları ilə dinc şəraitdə yaşamağa üstünlük verən sülhsevər ölkə imicini qazandırmışdır. Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən tükənməz təbii sərvətləri, iqtisadi imkanları ilə yanaşı, mədəni, elmi, intellektual, yaradıcı potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində ölkəmizin dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar.

Respublikamız BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatların üzvüdür. NATO və Avropa Birliyi ilə səmərəli və işgüzar əlaqələr qurulub.

Heydər Əliyev böyük və tükənməz düha sahibi kimi ölkəmizin bu günü və gələcəyi üçün əzəmətli tədbirlər həyata keçirmişdir. O, Azərbaycanın salnaməsində təkrarolunmaz rəhbər, unudulmaz el oğlu, fədakar insan kimi qalmışdır.

Hamımız üçün çox doğma və əziz olan Heydər Əliyev dünya şöhrətli siyasətçi, zəmanəsinin ən böyük şəxsiyyəti idi. O, Azərbaycanın güclü, inkişaf etmiş qüdrətli dövlətə çevrilməsində, sənayemizin, kənd təsərrüfatımızın, sosial-iqtisadi sahələrin güclənməsi yolunda əlindən gələni əsirgəməmişdir. Ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsində, pensiyaçıların, əlillərin, çoxuşaqlı ailələrin, əmək qabiliyyəti olmayan insanların sosial problemləri həmişə onun diqqət və qayğısı ilə əhatə olunmuşdur. Heydər Əliyev ümumxalq məhəbbətini təkcə öz vətənində deyil, bütün dünyada qazanmışdı. Buna görə də dünya siyasətçiləri, dövlət və hökumət rəhbərləri, siyasi xadimlər ulu öndərimizi həmişə yüksək qiymətləndirir, onunla razılaşırdılar. O, əvəzsiz, yeri görünən çox müdrik şəxsiyyət idi. Qazandığımız müstəqilliyə, əldə olunan sabitliyə, həyatımızdakı inkişafa və tərəqqiyə görə biz bu böyük şəxsiyyətə çox borcluyuq.

Heydər Əliyev bütün mənalı ömrünü yalnız insanlığa xidmət göstərməyə sərf etmişdi. Bu böyük şəxsiyyət Azərbaycan xalqının təhlükəsiz yaşaması, azadlıq haqqını tapması uğrunda mübarizə aparmışdı. "Haqqı tapdanan insanların arxasında güclü dövlət durmalıdır, ədalət durmalıdır". Bu ideya və prinsiplər Heydər Əliyevin istər milli təhlükəsizlik orqanlarında, istər Sovet dönəmindəki siyasi fəaliyyətində, istərsə də Azərbaycanın prezidenti olduğu son 10 ildə həyat devizi, amalı idi.

Heydər Əliyev respublikamızın hansı bölgəsinə ayaq basıbsa, xalq onu ən əziz adamı kimi qarşılayıb, qədəmləri altında qurbanlar kəsib, gəlişinə sevinib. Hər bir böyük siyasətçinin qibtə edəcəyi bir ömür yaşadı Heydər Əliyev. O, zəngin, mübarizələrlə və qalibiyyətlə dolu həyatının hər gününü, hər anını doğma xalqına bağışladı. Bu xalqı parçalanmaqdan, məhv olmaqdan, əzilməkdən xilas etdi, dünyada layiq olduğu şöhrətə çatdırdı. Ümummilli liderimiz müstəqil Azərbaycan dövlətini qurdu. Bu gənc və zəif dövləti öz qüdrətli əllərilə ayağa qaldırdı, möhkəmləndirdi, xarici düşmənlərdən və daxildəki xəyanətkarlardan qorudu. Heydər Əliyev Azərbaycan dövlətinə, bu məmləkətə, bu xalqa yönələn bütün zərbələrə qarşı öz polad sinəsini sipər etdi.

Azərbaycan dövlətinə müstəqillik, əbədiyaşarlıq, xalqa bəxtiyarlıq bəxş edərək əbədiyyətə qovuşan böyük liderimiz əbədiyaşarlıq qazandı. Nə qədər ki dünyada müstəqil Azərbaycan dövləti var, Heydər Əliyev yaşayacaqdır.

Ümummilli liderimiz, möhtərəm Heydər Əliyevin milli və ümumbəşəri dəyərlərə söykənən ideyaları yüz illərlə yaşayacaq və qalib gələcəkdir. Heydər Əliyevin adının əbədiləşdirilməsi üçün ən əsas istiqamət isə ümummilli liderimizin siyasi kursuna axıradək sədaqətli olmaqdır. Ümummilli liderimizin ideyalarının təntənəsi yolunda ləyaqətlə çalışmaq, müstəqil Azərbaycanın tərəqqisi naminə möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşmək, milli birliyə nail olmaq onun xatirəsinə ən böyük ehtiramdır.

Azərbaycanda bu gün ümummilli liderimizin ideyaları nəinki yaşayır və həyata keçirilir. Böyük öndərimizin başladığı, lakin axıra çatdıra bilmədiyi işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkəmizin rəhbərinin bu gün dünya miqyasında qazandığı böyük nüfuz, nəhəng dövlətlərin başçıları ilə bərabərhüquqlu tərəfdaş kimi danışıqlar aparması, xalqımızın həqiqətlərini uca səslə bəyan etməsi bir daha sübuta yetirir ki, Heydər Əliyevin dövlətçilik ideyalarının, Heydər Əliyev yolunun alternativi yoxdur və bu yol xalqımızı yeni-yeni uğurlara, zəfərlərə aparır.

Biz hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Heydər Əliyev irsinə daim sədaqətliyik və bundan sonra da belə olacağıq. Böyük şəxsiyyətin, Azərbaycan xalqının dahi oğlunun pak əməlləri, müqəddəs ideyaları, arzuları və vəsiyyətləri həmişə yaşayacaqdır.

**Qara QARAKİŞİYEV,**
**Nizami Rayon İcra hakimiyyəti başçısının Keşlə qəsəbəsi üzrə nümayəndəsi, YAP rayon təşkilatının İdarə Heyətinin üzvü**

# Sosial-iqtisadi inkişafın Azərbaycan modelinin yaradıcısı

**Azərbaycan xalqının böyük oğlu, dünya miqyaslı görkəmli dövlət xadimi Heydər Əliyevin adı, hər şeydən əvvəl, milli dövlətçiliyimizin simvolu kimi səslənir. Azərbaycan çoxəsrlik dövlətçilik tarixinə malik olsa da, Heydər Əliyev kimi qüdrətli dövlət xadiminin meydana çıxması nadir hadisədir. Bu dahi şəxsiyyət uzun əsrlər boyu ölkəmizin və xalqımızın dövlətçilik yolunda apardığı mübarizəni, formalaşdırdığı davamlı ənənələri bərqərar edən, ümid etdiyi gələcək üçün strategiyanı reallaşdıran dahi siyasətçidir.**

Dəfələrlə sınaqdan çıxmış təcrübə sübut edir ki, xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, dünya siyasətçilərinin və müdrik dövlət başçılarının rolu müstəsna əhəmiyyət daşıyır. Bəşəriyyətin nadir hallarda yetirdiyi Heydər Əliyev kimi dahi insanlar isə bütöv bir salnamə, tarix yaratmağa və tarixin gedişatını nizamlamağa qadir olurlar. Ulu öndərimizin Azərbaycanın müdrik rəhbəri kimi çoxşaxəli fəaliyyəti, Vətən və xalq qarşısındakı ölçüyəgəlməz misilsiz xidmətləri dahi şəxsiyyətlərin tarixi prosesdə həlledici rol oynadıqlarını əyani şəkildə təsdiqləyən ən dəyərli nümunələrdəndir. Prezident İlham Əliyevin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamında deyilir: "Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir".

XX əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütünlüklə cəmiyyətimiz Heydər Əliyevin titanik səyləri nəticəsində yeni impuls, yeni inkişaf parametrləri kəsb edərək əslində, özünün yeni mərhələsinə qədəm qoymuşdur. O zamandan başlayaraq yeni tarixi mərhələdə Heydər Əliyev ideyaları həyatımızın başlıca gerçəkliyi, inkişafımızın təməl daşı olaraq qalmaqdadır. Tam qətiyyətlə və cəsarətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr onun tarixinin xüsusi, ən intensiv inkişaf mərhələsini təşkil edir. Bu mənada həmin dövrü nəinki sürətli və hərtərəfli yüksəliş illəri, bəlkə də yeni tarix adlandırmaq daha dəqiq qiymətləndirmə nümunəsi olardı.

Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyası dövrü müasir Azərbaycan cəmiyyətinin formalaşması vəzifələrinin uğurla və ardıcıl olaraq yerinə yetirilməsini özündə ehtiva edir. Azərbaycanın böyük və sürətli inkişaf mərhələsinə qədəm qoyaraq yeni cəmiyyət parametrləri kəsb etməsi ölkənin inkişafının sadəcə prosesin adi axarının təzahürü formasında deyil, bir qayda olaraq əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə formasında özünü büruzə verdi. 1970-80-ci illərdə Azərbaycan cəmiyyətinin həyatında baş verən sürətli tərəqqi sayəsində ölkənin mahiyyət etibarilə yeni keyfiyyət halına, Azərbaycan tarixinin isə yeni inkişaf mərhələsinə keçməsi inkaredilməz reallıqdır. Azərbaycanın ikinci dəfə yeni keyfiyyət halına və deməli, yeni tarixi mərhələyə daxil olması da, artıq başqa reallıqlar çərçivəsində, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə birbaşa əlaqədardır.

Xalqımızın təkidi ilə ulu öndərin ikinci dəfə ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı xaosdan, siyasi hərcmərclikdən qurtardı. Bütün varlığını xalqımıza həsr edən Heydər Əliyevin rəhbərliyi sayəsində qısa zaman kəsiyində dövlət idarəçiliyi və ordu quruculuğunda böyük nailiyyətlər qazanıldı. Azərbaycanın sosial-iqtisadi, makroiqtisadi sabitliyi yarandı, Azərbaycan dövləti quruldu.

Ulu öndər uzunmüddətli sosial-siyasi sabitliyin və iqtisadiyyatın dinamik inkişafının təmin edilməsini ön plana çəkməklə prioritetlərin düzgün müəyyənləşdirilməsini əsas götürürdü və ölkədə böyük islahatlar aparmağa başladı. Milli iqtisadiyyatın inkişafı və dövlət quruculuğunun möhkəmləndirilməsi naminə ilk növbədə beynəlxalq təcrübəyə əsaslanan qanunvericilik bazasının yaradılması lazım idi. Heydər Əliyev bütün sahələr üzrə möhkəm normativ-hüquqi aktların qəbul olunmasını təmin etdi və bu əsasda ölkədə sahibkarlar ordusunun formalaşmasına əlverişli şərait yarandı. Ölkəyə xarici investorların cəlb olunması üçün ilk növbədə onların hüquqlarının qorunması və əlverişli investisiya mühitinin yaranması tələb olunurdu.

1994-cü il sentyabr ayının 20-də Heydər Əliyevin rəhbərliyi ilə xarici ölkələrin nüfuzlu şirkətlərinin rəhbərləri və bir sıra beynəlxalq qurumların iştirakı ilə "Əsrin kontraktı" adlanan neft müqaviləsi imzalandı. Bu sazişin icrası ilə əlaqədar ölkəmizə xarici investisiyaların axını başlandı. 1994-cü ildən başlayaraq Azərbaycanda baş verən iqtisadi proseslər və aparılan iqtisadi islahatlar dövlət büdcəsinə, onun gəlir və xərclərinin dinamikasına, strukturuna öz müsbət təsirini göstərdi. 1995-ci ildən etibarən Heydər Əliyevin rəhbərliyi altında iqtisadiyyatın bütün sahələrində geniş islahatlar daha da sürətləndi.

Ulu öndər Heydər Əliyevin titanik səyi nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyəti etibarilə yeni bir modeli—Azərbaycan modeli yarandı. Bu əsasla iqtisadi inkişafın ikinci mərhələsində ölkə yeni modelin gerçəkləşməsinin rəsmi bazası kimi bir çox irimiqyaslı siyasi sənədlər—konsepsiya, strategiya və proqramlar qəbul olundu. Azərbaycan iqtisadiyyatında davamlı və dinamik inkişaf məntiqinə əsaslanan yeni modelin strateji istiqamətləri: sərbəst bazar münasibətlərinə əsaslanan və dinamik innovativ inkişaf qabiliyyətinə malik olan sosialyönümlü bütöv iqtisadi-müstəqil iqtisadiyyatın formalaşdırılması, mövcud olan təbii—iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması müəyyənləşdirildi.

Ulu öndər Heydər Əliyev məktəbinin layiqli davamçısı, onun strateji siyasətini və ideyalarını uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elmi təcrübi əsaslara bağlı iqtisadi siyasəti respublikanın sosial-iqtisadi inkişafı prosesində dinamizm və məqsədyönlülüyü təmin etmiş, qarşıda duran vəzifələrin həllinə real imkanlar açmış, cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına etibarlı zəmin formalaşdırmışdır. Ölkə başçısının daxili və xarici siyasəti nəticəsində son illərdə ictimai-siyasi, sosial-iqtisadi həyatın bütün sahələrində uğurlu nəticələrə imza atılmışdır.

Sürətli sosial-iqtisadi inkişaf göstəricilərinə malik Azərbaycan qazandığı nailiyyətlərin miqyasını müntəzəm olaraq genişləndirməklə, yeni uğurların müəllifi kimi çıxış etməkdədir. Artıq dinamik sosial-iqtisadi tərəqqi sahəsində ulu öndər Heydər Əliyev ideyalarına əsaslanan, öz iqtisadi modelini yaradan Azərbaycan üçün əsas fərqləndirici xüsusiyyətlərdən biri bu inkişafın davamlı xarakter daşımasının möhkəm təməl üzərində qurulmasıdır.

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsindəki uğurları beynəlxalq nüfuzlu qurumlar tərəfindən təqdir olunduqca, ölkəmizin dünya birliyinin siyasi arenadakı nüfuzu daha sürətlə artır. Beynəlxalq reytinq mərkəzləri və nüfuzlu kütləvi informasiya vasitələri ölkəmizin müxtəlif sahələrindəki uğurlarını yüksək qiymətləndirirlər.

Adı Azərbaycan tarixinə dahi xilaskar və böyük qurucu kimi həkk edilən Heydər Əliyevin zəngin irsi, ideyaları və tövsiyələri müasir cəmiyyətimizin inkişafının nəinki ideya mənbəyi, habelə möhtəşəm səfərbəredici amilidir. Ümummilli liderin təlatümlərdən çıxardığı qurub-yaratdığı Azərbaycan indi onun siyasi varisi Prezident cənab İlham Əliyevin rəhbərliyi altında bütün dünyaya möhtəşəm yüksəliş dinamikası nümayiş etdirir. Xilaskarlıq missiyasının yaratdığı quruculuq ab-havası yeni, müasir Azərbaycanın real siyasi və iqtisadi gerçəkliklərində təzahür edir.

**Əlibaba MƏHƏRRƏMZADƏ,**
**Caspian Audit Company Şirkətinin direktoru, iqtisad elmləri doktoru,**